BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2011*

**UOT (479) «19» 20 əsr**

# AĞDƏRƏ TARİXİNƏ DAİR

**N.R.MƏMMƏDOV**
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
***Memmedov-n @yahoo.com.***

*Məqalədə Ağdərə rayonunun tarixinə dair yazılmış əsərlər təhlil edilmiş və sübuta yetirilmişdir ki, Ağdərə Azərbaycanın bir hissəsi olmuş, tarixin heç bir mərhələsində ondan ayrılmamışdır. Rayonun sosial-iqtisadi inkişaf göstəriciləri digər rayonlarla müqayisədə öndə getmişdir.*

**Açar sözlər**: Ağdərə tarixi, Qarabağ, obyektiv, ədəbiyyat, işğalçı

XX yüzilliyin 80-ci illərinin ortalarında sovet cəmiyyətinin iqtisadi, siyasi və mənəvi həyatında böhranqabağı vəziyyət yarandı. İstehsalatın artım sürəti, səmərəliliyi, əməyin məhsuldarlığı durmadan aşağı düşdü. Kommunist ideologiyasına inam azaldı. Azərbaycanda milli özünüdərk, hüquqların tapdalanmasına, sərvətlərin talan olunmasına etiraz gücləndi. Moskva, labüd iflasdan xilas olmaq üçün müxtəlif manevrlər etdi. Bu manevrlərdən biri də, Azərbaycanın DQMV-də milli münaqişə ocağının alovlandırılması idi.

Həm Rusiya, həm də Avropa tərəfindən himayə olunduqlarını görən erməni millətçiləri türk soyqırımına, terrora əsaslanan qanlı siyasətlərini – «Böyük Ermənistan» dövləti yaratmaq kimi sərsəm xülyanı reallaşdırmaq cəhdlərini yenidən fəallaşdırdılar. Antitürk təbliğatı və terrora səfərbərlik daha da gücləndi. 1986-cı ildən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni milli separatçılıq təbliğatı açıq və geniş xarakter aldı. P.Qazaryan, Z.Balayan, S.Xanzadyan, B.Ulubabyan, S.Kaputikyan və başqalarının tarixi saxtalaşdıran, azərbaycanlıları təhqir edən qızışdırıcı «əsərləri» erməni millətçilərinin daha davakar xarakter almasında, münaqişənin alovlanmasında müstəsna rol oynayırdı.

Çox təəssüflər olsun ki, Azərbaycan tarixini öz mənafelərinə uyğun saxtalaşdıranlar təkcə erməni tarixçiləri və dilçiləri deyil, hətta şairləri, publisistləri, musiqiçiləri, idmançıları, artistləri, həkim və keşişləri də bu işə cəlb olunmuşdular. Onlar tarixi faktları öz arzularına uyğun tərzdə təhrif edərək Qarabağı, o cümlədən Ağdərəni, əvvəldən erməni torpağı kimi təqdim edirlər. S.T.Yeremyan, A.N.Ter-Qvendyan, A.Ş.Minaskanyan, B.A.Ulububyan, A.A.Xaçatryan, Q.Ş.Svazyan, A.A.Akopyan və digərləri Azərbaycanın qədim və orta əsrlər

tarixini saxtalaşdıraraq, bütövlükdə Kür-Araz çayları arasındakı əraziləri Ermənistana mənsub olan ərazi, əhalinin isə sırf ermənilərdən ibarət olması saxta konsepsiyanı bütün dünyaya yaya bilmişlər. Bu gün tarixi faktlara və materiallara əsaslanaraq tariximizi saxtalaşdıranların konsepsiyalarının obyektiv, prinsipial elmi təhlilini vermək, həqiqəti aşkar edərək xalqa çatdırmaq və bununla da ədalətsizliyə qarşı haqq səsimizi ucaltmaq tarixçilərimizin təxirəsalınmaz borcudur.

Apardığımız araşdırmalardan məlum olur ki, Azərbaycanın Ağdərə rayonunun tarixinə dair yazılmış əsərlərin sayı çox azdır. Çoxəsrlik tarixə malik Ağdərə rayonunun tarixinə dair heç bir elmi tədqiqat işinin yazılmaması da aşkar edilmişdir. Ağdərənin iqtisadi-siyasi mədəni həyatına dair yazılmış əsərlərdən biri N.Məmmədova məxsusdur. Onun AMEA-nın «Xəbərlər» (tarix, fəlsəfə, hüquq seriyası), № 1-2-də nəşr olunmuş «Azərbaycanın Ağdərə rayonunun iqtisadi-mədəni inkişafı və təbii-coğrafi mövqeyinin qısa tarixi icmalı (1930-1992)» adlı məqaləsi sırf Ağdərə rayonunun tarixinə həsr olunmuşdur [15, 87]. Məqalədə Ağdərə rayonunun təbii-coğrafi mövqeyi, təbiəti, iqlimi, faydalı qazıntıları, əhalisi, əhalinin milli tərkibi, Ağdərəyə şəhər statusunun verilməsi, rayonun Ermənistan silahlı birləşmələri tərəfindən işğalı və onun ağır nəticələri, təsərrüfatın və mədəniyyətin inkişafı, qədim abidələri, rayonun bugünkü vəziyyəti, faktlar və materiallar əsasında təhlil edilmişdi. Lakin cəmi 11 səhifəlik məqalə qədim tarixəmalik Ağdərənin tarixini əhatə edə bilməzdi.

N.Məmmədovun 210 səhifəlik «Azərbaycan SSR-in Dağlıq Qarabağ» bölgəsinin şəhər və rayonlarının tarixi (XX yüzilliyin 20-90-cı illəri)» adlı kitabının bir fəsli Ağdərə rayonunun tarixinə həsr edilmişdir. Kitabda, bəhs olunan xronoloji çərçivədə Ağdərənin sosial-iqtisadi və mədəni inkişafı, siyasi durumu işıqlandırılır. Rayonun inkişafının başlıca amili kimi Azərbaycan hökumətinin dərin qayğısı nəticəsində olması məsələləri təhlil olunur. Lakin əsərdə Ağdərə rayonunda qədimdən yaşayan azərbaycanlılara qarşı rayonun erməni rəhbərliyi tərəfindən göstərilən ögey münasibətin səbəbləri açıqlanmır. Həmçinin əsərdə Ağdərənin qədim tarixinə az yer verilmişdir.

Yazıçı-jurnalist Z.Sultanovun «Ağdərədən gələn var» adlı əsərində Ağdərədə gedən qanlı döyüşlərdən, xalqımızın mərd oğullarının vətən uğrunda apardığı ölüm-dirim mübarizəsindən bəhs edilir [17, 80]. Müəllifin qənaətinə görə xalqımızın bəşəri faciəsi olan Qarabağ müharibəsinin gedişində əsaslı dönüş Ağdərə əməliyyatında baş vermişdir. Əsərdə hərb tariximizə elə bu adla da daxil olmuş həmin əməliyyatdakı uğurlarımızdan, mərd oğullarmızın qəhrəmanlıqlarından, igidliklərindən danışılır. Son nəticədə müvəqqəti məğlubiyyətimizin səbəbləri açıqlanır. Müəllif Ağdərə əməliyyatını Qarabağ müharibəsinin anatomiyası və nəhəng daşı adlandırır. Əsər yalnız siyasi məsələləri və XX yüzilliyin 80-ci illəri və 90-cı illərinin əvvəllərini əhatə edir.

Ermənistan Elmlər Akademiyasının nəşr etdirdiyi «Dağlıq Qarabağ: tarixi arayış» kitabında Ağdərənin tarixi tamamilə saxtalaşdırılmışdır [3, 93]. Erməni alimlər Ağdərəni qədimdən Ermənistana aid ərazi hesab edərək, ermə-

nilərin burada say üstünlüyü ilə çox yaşamasını vurğulamışlar. Faktlar isə bütün bunların ağ yalan, böhtan olduğunu təsdiq edir. Ağdərə Azərbaycanın qədim yaşayış məskənidir.

Apardığımız tədqiqatlardan məlum olur ki, Ağdərənin ilkin adı «İsfahançıq», «Hunaşen», «Xonaşen» adlandırılıb. Xonaşen toponimi «Hum» və «Şen» sözlərindən ibarətdir. Vizyantiya tarixçisi Feovan yazır ki, 624-cü ildə Vizyantiya çarı İrakli Albaniyada «Hun ölkəsi» adlı yerdə xəzərlərlə görüşmüşdü [2, 20]. Güman etmək olar ki, həmin yer Xonaşendir. Məkrli niyyət sahibi olan erməni alimləri «Şen» sözünün erməni dilinə məxsusluğunu əldə rəhbər tutaraq ərazinin ermənilərə aid olduğunu iddia edirlər. Lakin araşdırmalardan məlum olur ki, «Şen» sözü qədim türk mənşəli sözdür. Belə ki, XIII əsrə aid «Türk-ərəb lüğəti»ndə «Şen» sözünün, «məskun», «əhali yaşayan yer» mənasında olduğu göstərilmişdir. Həmçinin L.Z.Budaqovun, İ.M.Dyakanovun, M.Kaşkarinin, N.A.Abelovun tədqiqatlarında göstərilir ki, «Şen» sözü sırf türk sözüdür. Bu sözün mənası «yaşayış yeri» «məhəllə», «abad yer» deməkdir [15, 93]. Ağdərə oronimi «ağ» («kiçik», «qısa», «dayaz») və «dərə» («çay yatağı», «iki dağ arası», «dayaz süxur») sözlərindən düzəlib, mənası «kiçik çay yatağı», «dayaz süxur» deməkdir. Ağdərə toponiminə Azərbaycanın digər ərazilərində, hətta xarici dövlətlərdə – Əfqanıstanda, İranda rast gəlmək mümkündür. Bununla da, tədqiqatlar Ağdərənin, Azərbaycanın qədim yaşayış məskəni olduğunu sübut edir. Əhalinin milli tərkibinə gəldikdə isə arxiv sənədlərinə əsasən müəyyən olunub ki, XIX yüzillikdən geriyə Ağdərədə heç vaxt ermənilər say üstünlüyünə malik olmayıb. Onlar bölgədə əhalinin cüzi bir hissəsini təşkil ediblər. Məqsədli köçürmə siyasətindən sonra Ağdərədə ermənilərin sayı artmışdır. 1981-ci il məlumatına görə Ağdərənin ərazisi 1705 kvadrat kilometr, əhalisi 44,4 min nəfər olub. Bunun 30,2 min nəfərini ermənilər, 13,1 nəfərini azərbaycanlılar təşkil edib [15, 89].

1970-ci ildə Xankəndi şəhərində nəşr olunmuş «Dağlıq Qarabağ Sovet hakimiyyəti illərində» adlı kitabında, 1920-1969-cu illərdə Ağdərənin sənayesi, kənd təsərrüfatı, ərazisi, əsas yaşayış məskənləri, rayonda şəxsi yardımçı təsərrüfatın inkişafı, kapital qoyuluşu, mədəni inkişafı haqda məlumat verilir [21, 200]. Kitabdakı məlumatlara əsaslanaraq müəyyən edirik ki, Ağdərə rayonunun ərazisi keçmiş DQMV-nin bütün rayonları arasında birinci yerdə dayanmışdır. Burada hər kvadrat kilometrə 26 nəfər əhali düşür ki, bu göstərici ümumrespublika səviyyəsində birinci yer demək idi. Bütün bunlar isə rayonda əhalinin yaxşı yaşaması üçün şərait yaradılmışdı. Həmçinin rayonda əhalinin təbii artımı (1000 nəfərə 18,5 nəfər), xəstəxanaların və tibb işçilərinin sayı istər ümumrespublika səviyyəsində, istərsə də DQMV-nin rayonları ilə müqayisədə birinci yerdə dayandığı aşkar olunur. Bütün bu faktlar isə bölgədə yaşayan ermənilərin «sosial-iqtisadi gerilik» konsepsiyasının tamamilə ağ yalan olduğunu göstərir.

Azərbaycan Sovet Ensiklopediyasının altıncı cildində Ağdərə rayonunun faydalı qazıntı yataqları, iqlimi, təbiəti, əhalisi, təsərrüfatı, mədəniyyəti haq-

qında məlumat verilmişdir [1, 381]. Lakin bir səhifəlik yığcam məlumatla bütöv rayonun tarixi əhatə oluna bilməzdi.

Q.Qeybullayevin «Qarabağ» adlı əsəri əsasən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin antik və siyasi tarixinə həsr olunmuşdur. Əsərdə, Dağlıq Qarabağın, o cümlədən «Ağdərənin tarixən Ermənistan torpağı olması» haqqında erməni tarixşünaslığındakı hakim konsepsiyaya tutarlı cavab verilmişdir. Kitabda həmin konsepsiyanın saxta olduğu tarixi faktlarla əsaslandırılmışdır [10, 198]. Əsərin ana xəttini, eramızın əvvəllərindən etibarən Kürdən cənubdakı bütün torpaqlarımızın, o cümlədən Ağdərənin Azərbaycan torpağı, burada yaşayan əhalinin isə yerli türkdilli ulu əcdadlarımızdan ibarət olmasının faktlar özülündə əsaslandırması təşkil edir. Kitabda, bu gün dünya ictimaiyyətini ən çox narahat edən suala kifayət qədər inandırıcı faktlar əsasında düzgün cavab verilmişdir. Dağlıq Qarabağ bütün tarix boyu Azərbaycan torpağı olmuşdur və deməli, ermənilərin torpaq iddiası tamamilə əsassız və ədalətsiz iddiadır. Bütün Qarabağın o cümlədən Ağdərənin etnik və siyasi tarixini öyrənmək baxımından əsərin böyük əhəmiyyəti vardır.

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, t.e.d., professor Y.M.Mahmudov və t.e.d., prof. K.Şükürov «Qarabağ tarixi (Qədim zamanlardan müasir dövrədək)» adlı əsərində Qarabağ sözünün etimologiyası, tarixi-coğrafi ərazisi, onun tarixinə dair ən qədim məlumatlar, ərazidən tapılmış qədim maddi-mədəniyyət nümunələri, Qarabağın Yaxın Şərqlə iqtisadi və mədəni əlaqələri, Azərbaycanın dövlətçilik tarixi, Cənubi Qafqazda erməni etnosu, ermənilərin Cənubi Qafqaza miqrasiyası, «Böyük Ermənistan» ideyası, orta əsrlərdə Qarabağ əhalisinin etnik mənsubiyyəti, Qarabağın erməni məlikliklərinin yaranma tarixi, I Pyotrun erməni faktoru, Azərbaycan torpaqlarının bölüşdürülməsi və Qarabağın taleyi, Qarabağ xanlığı və məliklərin separatçı fəaliyyəti, çar Rusiyasının Qarabağı işğal etməsi və ermənilərin Qarabağa köçürülməsi, XX yüzilliyin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı Qarabağda soyqırım siyasəti, AXC dövründə ermənilərin əsassız ərazi iddiaları, Dağlıq Qarabağ anlayışı, Dağlıq Qarabağda sovet hakimiyyətinin qurulması, Dağlıq Qarabağa Muxtariyyət statusu verilməsi və ağır nəticələri, ermənilərin bölgədə əhalinin etnik və milli tərkibini məqsədli şəkildə dəyişdirməsi, Qarabağın dağlıq və aran hissələrinin inkişaf səviyyəsi (müqayisələrlə), Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, ermənilərin törətdikləri vəhşiliklər, Azərbaycan torpaqlarının işğalı və onun ağır nəticələri, Dağlıq Qarabağ probleminin həlli sahəsində Azərbaycan hökümətinin həyata keçirdiyi tədbirlər və digər önəmli məsələlər tədqiq və təhlil edilmişdir. Qarabağ tarixinin öyrənilməsi üçün əsərin çox böyük elmi əhəmiyyəti vardır [14, 3-53].

Yazıçı-jurnalist Xəqani Rzaquliyev və Rəhman Quluzadənin «Ağdərədə nələr oldu? Şəhidlər və şahidlər» kitabı qədim Kolanı yurdlarının – Ağdərə kəndlərinin Qarabağ müharibəsində verdiyi şəhidlərdən söz açır [11, 98]. Kitabda torpaqlarımızın erməni işğalçılarından təmizlənməsində qəhrəman

Ağdərə oğullarının mübarizəsi konkret faktlar əsasında qələmə alınmışdır. Tarixi mənbələrə əsaslanan müəlliflər, XX yüzilliyin əvvəllərindən sonlarınadək erməni faşistlərinin Ağdərənin kəndlərində azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərə də nəzər salmışdılar.

«Qardaşlıq ailəsində (DQMV-i 50 ildə)» adlı kitabda 1920-1970-ci illərdə Vilayətin sosial-iqtisadi və mədəni inkişafı haqda məlumat verilmişdir [12, 3-204]. Kitabın iki fəsli «Yaradan əllər» və «Şəhər və kəndlərin yeni siması» - fəsilləri Ağdərə rayonunun iqtisadi və mədəni inkişafına həsr olunmuşdur. «Yaradan əllər» fəslində Ağdərə rayonu ərazisində Sərsəng su anbarının tikintisi prosesindən, anbarın əhəmiyyətindən geniş bəhs edilir. «Şəhərin və kəndin yeni siması» fəslində isə Ağdərə rayonu ərazisində SES-in tikintisindən, taxta-şalban zavodunun, sənaye kombinatlarının inşasından, ərazidəki faydalı qazıntı yataqlarından, Ağdərə rayonu ərazisində yetişdirilən bitkilərdən bəhs olunmuşdur [12, 187].

Q.Hacıyevin «Qarabağın maddi və mənəvi mədəniyyəti» adlı əsərində həm Qarabağın və həm də Ağdərənin qədim yaşayış məskənlərindən biri olması, buradakı maddi-mədəniyyət nümunələrinin dini ideologiyanın yaranması üçün oynadığı rolundan, maddi-mədəniyyətin inkişafında sənətkarlığın əhəmiyyətindən, alban-xristian abidələrinin əsas əlamət və xüsusiyyətlərindən, alban abidələrinin yaranma tarixindən, maddi və mənəvi mədəniyyətin qarşılıqlı əlaqəsindən, qədim alban abidələrinin bu günkü acı taleyindən, erməni vandalları tərəfindən dağıdılması və özününküləşdirməyə edilən cəhdlərdən geniş bəhs edilmişdir. Əsərdə Ağdərənin Dovşanlı kəndindəki tunc dövrünə aid Xaçınçay kurqanlarından, Çardaxlı kəndindəki Crabert qalasından (VII əsr), XIII əsrə aid Gəncəsər məbədindən və digər memarlıq abidələrindən geniş bəhs etmiş və 1993-cü ildə Ağdərənin bu qədim incilərinin Ermənistan silahlı birləşmələri tərəfindən dağıdıldığı göstərilmişdir. Ağdərənin maddi və mənəvi mədəniyyətinin öyrənilməsi üçün əsərin böyük elmi əhəmiyyəti vardır [4, 53-80].

X.Xəlilovun «Qarabağın elat dünyası», «Qarabağ-etnomənəvi inkişaf tarixi», «Qarabağ tarixi etnoqrafik əyalət» adlı əsərləri Qarabağın tarixinə həsr olunmuşdur [6; 7; 8]. Əsərlərdə ən başlıca cəhət, Qarabağın tarixi coğrafiyası, onun tarixi haqqında yeni qaynaqlar elmə gətirilmişdir. X.Xəlilov, yazdığı əsərlərdə Qarabağ təbiətinin, əhalisinin, iqliminin, flora və faunasının, təsərrüfatının özünəməxsusluğundan, onun erməni daşnaqlarına qarşı apardığı bütün mübarizələrdə üzüağ çıxmasında, elat dünyasından, maddi və mənəvi mədəniyyətindən, adət-ənənələrindən geniş bəhs etmişdir.

N.Hacıyevin «Dağlıq Qarabağın tarixindən sənədlər» kitabında [5, 170] 1828-1830-cu illərdə ermənilərin Ağdərədə məskunlaşdırılması, 1905-ci il 26 dekabr tarixində 500 nəfər Ağdərə sakininin (azərbaycanlının) erməni qulduru Abram tərəfindən öldürülməsi, 1939-cu ildə Ağdərəyə məqsədli şəkildə Mardakert adının verilməsi, 1978-ci ildə Ağdərədə ermənilərin bu regiona köçürülməsinin 150 illiyi münasibətilə abidə qoyulması və 1985-ci ildə onu

dağıtmasından, erməni terrorçularının rayon ərazisində törətdikləri terror hadisələri və Ağdərənin işğalı məsələlərinə aydınlıq gətirilmişdir.

Qeyd edək ki, 1992-ci il oktyabrın 13-də Azərbaycan Respublikasının Milli Məclisi Ağdərə rayonunu ləğv edərək 3 qonşu rayon – Kəlbəcər, Tərtər və Ağdam rayonları arasında bölüşdürdü. Fikrimcə, bu bölüşdürmə heç də yaxşı hal olmadı. Ağdərə rayonu 7 iyul 1993–cü ildə Ermənistan silahlı birləşmələri tərəfindən ələ keçirildi. Rayonun 14 kəndində yaşayan 15 minə yaxın azərbaycanlı öz dədə-baba yurd-yuvalarından didərgin düşdülər.

Beləliklə, Ağdərənin tarixinə dair yazılmış əsərləri təhlil edərkən belə nəticəyə gəlmək olar ki, ərazidə qədimdən azərbaycanlılar yaşamışdır və Ağdərə Azərbaycanın ayrılmaz bir hissəsi olmuşdur və olacaqdır. Eyni zamanda, bu gün Ağdərənin bütöv tarixi tədqiq edilməldir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Sovet Ensiklopediyası. VI cild. Bakı: Azərnəşr, 1982, 586 s.
2. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. 2 hissəli, I hissə. Bakı: Şərq-Qərb, 2007, 580 s.
3. Dağlıq Qarabağ. Erevan: Гос. Изд., 1988, 93 s.
4. Hacıyev Q. Qarabağın maddi və mənəvi mədəniyyəti / Qarabağ, suallar və faktlar. Bakı: Qismət, 2005, 53-80 s.
5. Hacıyev N. Dağlıq Qarabağın tarixindən sənədlər. Bakı: Gənclik, 2005, 190 s.
6. Xəlilov X. Qarabağın elat dünyası. Bakı: Azərnəşr, 1992, 118 s.
7. Xəlilov X. Qarabağ tarixi etnoqrafik əyalət // AMEA-nın Xəbərləri. Bakı, 2003, № 2, 201-211 s.
8. Xəlilov X. Qarabağ: Etnomənəvi inkişaf tarixi. Bakı, 2006, 79 s.
9. Xudiyev İ. Müstəqil Azərbaycan. Bakı: Uni-Print, 2005, 100 s.
10. Qeybullayev Q. Qarabağ: Etnik və siyasi tarixinə dair. Bakı: Elm, 1990, 248 s.
11. Quluzadə R., Rzaquliyev X. Ağdərədə nələr oldu. Şəhidlər və şahidlər. Bakı: İşıq, 1995, 98 s.
12. Quliyev G.B., Volodin N.İ., Geverkov B.S. Qardaşlıq ailəsində. Bakı, «ADN», 1973, 204 s.
13. Qocayev M. Azərbaycanda şəhər və rayonlar. Bakı: Ünsiyyət, 2002, 48 s.
14. Mahmudov Y., Kərimov Ş. Qarabağ tarixi / Qarabağ, suallar və faktlar. Bakı: Qismət, 2005, 3-53 s.
15. Məmmədov N.R. Azərbaycanın Ağdərə rayonunun qısa tarixi icmalı (1930-1992) // AMEA-nın Xəbərləri. Bakı, 2010, № 1-2, 87-96 s.
16. Mkrtçyan Ş.M. DQMV. Bakı: ADN, 1970. 37 s.
17. Sultanov Z. Ağdərədən gələn var. Bakı: İşıq, 1993, 80 s.
18. Sovet Dağlıq Qarabağı. Bakı: ADN, 1983, 194 s.
19. DQMV-nin 40 illiyi. Bakı: ADN, 1963, 52 s.
20. DQMV IX beşillikdə. Bakı: Təhsil, 1976, 150 s.
21. DQMV Sovet hakimiyyəti illərində. Bakı: Təhsil, 1970, 200 s.


## ОБ ИСТОРИИ АГДЕРЕ


**Н.Р.МАМЕДОВ**



**РЕЗЮМЕ**

В статье показано, что в годы Советской власти история района Агдере велась исследователями армянских историков – фальсификаторов. Азербайджанские историки,

исследовав свою историю, объективно доказали, что Агдере является неотъемлемой частью Азербайджана. Исторические корни Карабаха ведут к античному периоду. Это одна из исторических провинций Азербайджана. Этот регион является важным политическим, культурным и духовным центром Азербайджана.

**Ключевые слова:** Агдере, исторический, Карабах, обьективно, литература, оккупация

## ON THE HISTORY OF AGHDARA

**N.R.MAMMADOV**

**SUMMARY**

The article reflects the falcification of the history of Aghdara by Armenian historians in the years of Soviet power. However, investigating the history of Aghdara, the Azerbaijani investigators prove that the region is an integral part of Azerbaijan. Historical roots of Karabakh go back to ancient period. Aghdara is one of historical provinces of Azerbaijan and a significant political, cultural and spiritual center of the country.

**Key words:** Aghdara, historical, Karabakh, ground, literature, occupation